Təlimin məqsədi təhsil islahatları proqramına uyğun olaraq ümumtəhsil məktəblərinin X-XI siniflərində "İqtisadiyyata giriş" fənninin tədris keyfiyyətinin artırılmasını təmin etməkdən ibarətdir.

Onu da qeyd edək ki, Təhsil Nazirliyi ilə əməkdaşlıq edən Azərbaycan Gənclərinin Nailiyyəti təşkilatı 2005-ci ildən bu proqram çərçivəsində respublikamızın 260 məktəbinə tədris-metodiki və texniki köməklik göstərib, 300-dən çox müəllimə "İqtisadiyyta giriş" fənni üzrə təlimlər keçib, həmin fənn üzrə 30.000-dən artıq dərs vəsaiti çap etdirərək məktəblilərə pulsuz paylayıb.

Təlimlərdə Bakı məktəblərinin pedaqoji kollektivlərinin üzvləri ilə yanaşı, Ağdaş, Kürdəmir, Yevlax və Goranboy məktəblərinin müəllimləri də iştirak ediblər.

Təlimlərin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.